*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 3 oktyabr 2018-ci il | № 76 (2292) | Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev: Bu gün bütün dünya görür ki, Azərbaycan-Türkiyə dostluğu sarsılmazdır, əbədidir

*Azərbaycan Ordusunun 100 illiyinə həsr olunan möhtəşəm parad ruhun paradıydı, azərbaycançılığın paradıydı, dövlətçiliyin paradıydı. O paradın mənəvi davamı kimi izlənilən parad da 100 illiyin paradı idi - küçələr Bakı şəhərinin azad edilməsinin 100-cü ilinin coşqusuna, könül xoşluğuna darlıq edirdi; 100 il əvvəlin ovqatı 100 ilə bac verməyib, araya düşən 73 ilin mənəvi sıxıntısını da üyüşdürüb. 1991-ci ilin oktyabrını bugünkü paradın təşkilatçılarına da, iştirakçılarına da Dədə Qorqud alğışı bilirəm: qaçaraqda kəhər atınız büdrəməsin, axar sularınız qurumasın, yanar ocaqlarınız sönməsin! Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad bu xeyir-duanın işığında izlənildi.*



Tədqim baxımından 15 sentyabr paradından əvvəl olan 26 iyun paradı tarixi hadisə kimi onun davamıdı - Qafqaz İslam Ordusunun bazasında yaradılmışdı Azərbaycan Ordusu. Məhz bu baxımdan 15 sentyabr paradında ən müasir döyüş texnikaları da nümayiş etdirildi; 15 sentyabr paradı sələf-xələf münasibətinə sədaqət kimi tarixləşdi.

Tarix zaman-zaman azərbaycançılıq, türkçülük mahiyyəti etibarilə biri digərini tamamlayan eyni ruhun şaxələri olan, etiraf etsə də, etməsə də, tanıdığı bu ruhun - bir əli Türkiyənin, bir əli Azərbaycanın çiynində olan ruhun qüdrətinə yaxşı bələddi. Bəşəriyyətlə yaşıd olan bu ruh zamanında tarixin yolgöstərəni kimi tanınıb. Doğu-Batı arası hökmü keçənlərin ruhudu bu ruh. 15 sentyabr paradı bu ruhu tarixə bir daha tanıtma paradı kimi tarixləşdirdi.

Bu ruh xalqı xalq, milləti millət, dövləti dövlət edən, tarixə tarixi dərs verən ulu ruhdu, uca ruhdu, ucaların ruhudu. Yaşaya-yaşaya yaşadan, yaşada-yaşada yaşayan bu ruhun işığında zaman-zaman dünyanın axarını dəyişən tarixlər yazılıb. O tarixlərdən biri də 1918-ci ilin 15 sentyabrında yazılıb. Bu parad o tarixin paradıdı.

Azərbaycanın istiqlal mübarizəsini Türkiyə özünün istiqlal mübarizəsi bildi - 1918-ci ilin 15 sentyabrı belə tarixləşdi. Qafqaz İslam Ordusunun döyüşləriylə yaranmış Cümhuriyyət möhkəmləndi, Azərbaycanın da maddi, hərbi yardımı ilə Türkiyənin qurtuluş savaşı zəfərlə nəticələndi; Türkiyənin qurtuluş savaşını Azərbaycan özünün qurtuluş savaşı bildi - 1922-ci ilin 30 avqustu belə tarixləşdi. Tarix gördü ki, min illər əvvəl bəngüdaşlara yazılanlar uca ruhların yaşarı ruhlara - özünə qayıdaraq böyük olanlara xeyir-duasıymış. Nuru paşayla Ələğa Şıxlinskinin sərkərdəlik dühası milli-xəlqi ruhun zəfərini təmin etdi. Nuru paşanın komandanlığıyla Qafqaz İslam Ordusunun sıralarında döyüşənlər tarix yazdı.

Dünyanın gözünü qamaşdıran o tarixdən - 1918-ci ilin 15 sentyabrından 100 il keçir...

Nuru paşa Bakıya yola düşəndə - martın sonlarında Ərzurumun gədiyinə təkəmseyrək qar gəlirmiş - düşünürəm. 100 il sonra Ərzurumdan əsən yellərin dilmanclığıyla Bakıya türk ruhunun xeyir-duası çatırdı...

Bu sərin payız səhəri 100 il əvvəlin ovqatıyla gəlmişdi. Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin təqdimatıyla süslənən bu ovqat qüdrət ovqatıydı. Bu ovqat "Bir millət, iki dövlət" fəlsəfəsini yaşadan iki bayrağı muniscəsinə qoşa dalğalandırırdı. Bu bənzərsizlikdən "nə könül doyurdu, nə göz əl çəkirdi"...

Bu parad "Bir millət, iki dövlət" müdrik kəlamının təsdiqi kimi izlənilirdi...

Bu parad Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, Azadlıq meydanında yan-yana dayanmış Türkiyə və Azərbaycan Ordusunun əsgərlərinin paradıydı...

(Ardı 2-ci səhifədə)

## Növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb

*Azərbaycan Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, oktyabrın 1-dən ölkəmizdə növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb. AZƏRTAC xəbər verir ki, bir ay davam edəcək çağırış prosesində minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün əsgəri xidmətə yollanacaq.*

Sərəncama əsasən, 2000-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983-1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

Xatırladaq ki, Prezident İlham Əliyev sentyabrın 4-də Azərbaycan vətəndaşlarının 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

# Müdafiə naziri: Şəxsi heyətin təhlükəsizliyi maksimal təmin edilsin və döyüş növbətçiliyi daha keyfiyyətli təşkil olunsun

*Sentyabrın 29-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov Mərkəzi Komanda Məntəqəsində Azərbaycan Ordusunun rəhbərliyi, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirlərinin və digər məsul zabitlərin cəlb olunması ilə geniş tərkibdə xidməti müşavirə keçirib.*





Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları şəxsi heyətə çatdıran Müdafiə naziri qoşunların təmas xəttində yaranmış son vəziyyətin təhlilini apararaq əsas diqqəti döyüş növbətçiliyinin daha keyfiyyətli təşkili, şəxsi heyətin təhlükəsizliyini maksimal təmin etmək məqsədilə xüsusi texniki vasitələrdən geniş istifadə edilməsi, eləcə də qış mövsümünə hazırlığın sona çatdırılması, dağlıq ərazilərin xüsusiyyətləri nəzərə alınmaqla şəxsi heyətin döyüş və maddi-texniki təminatının həyata keçirilməsi ilə əlaqədar göstərişlər verib.

Müşavirə zamanı general-polkovnik Zakir Həsənov gənc əsgərlərlə işin təşkili, fərdi və tərbiyə işinin səmərəliliyinin artırılması, trenajorlarda və təlim mərkəzlərində keçirilən nəzəri məşğələlərin intensivləşdirilməsi, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının fəaliyyətlərinin təhlili və müxtəlif peşələr üzrə yarışların keçirilməsi ilə bağlı vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Prezidenti İlham Əliyev: Bu gün bütün dünya görür ki, Azərbaycan-Türkiyə dostluğu sarsılmazdır, əbədidir

**(Əvvəli 1-ci səhifədə)**

Hər ürəkdə səslənən

*Qıymaram qar yağa,*
*qar daşa, qardaş,*
*Dönməz, dönə bilməz*
*qar daşa, qardaş.*
*Bu birlik dünyanın*
*heyrəti olub,*
*Arxadı, dayaqdı*
*qardaşa qardaş!* -

misraları könüllərə sarılırdı, könülləri tellendirirdi, həzin-həzin əsən yelləri dilləndirirdi, payızın inadını sındırıb bu birliyə, bu qardaşlığa bağır basanların çölünü-düzünü güllendirirdi...

Bu parad 100 il əvvəl yaşanılmışları yenidən yaşatma qüdrətiydi.

Hamı 100 il əvvəl Bakını azad edənlərin varislərinin yerişində yaşadılan 100 yaşlı ovqatın pərvanəsiydi, Abdulla Qurbaninin təqdimatı bu ovqatın bənzərsiz səyyarəsiydi - könül-könül gəzişən "Varıq, var olacağıq!" nidasıyla qoşa yaşanılırdı.

Əski uyğur mənbələrində "türk" kəlməsinin bir yozumu da güclü, qüdrətli deməkdi. Gücün gücə, qüdrətin qüdrətə sədaqətinin təntənəli keçidi deyirdi ki,

*Qarı dünya, börkü gör,*
*Başərə bax, görkü gör.*
*Qardaşlıq qüdrətiylə*
*Tarix yazan türkü gör!*

Hər misra bölünməyən, bölünməyəcək ruhun çağırışı kimi yaşanılırdı...

Parad Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi "Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi və Nuru paşanın rəhbərliyi altında Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi" kəlamının təntənəsi kimi izlənilirdi...

Türkiyə Silahlı Qüvvələrinin "Mehtaran" birliyinin "Mehtər marşı" Azadlıq meydanını dalğalandırdı. Bitkin ssenari, mükəmməl rejissura ("Mehtaran"ın gəlişi də, düzülüşü də,



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi "Biz bu gün burada yalnız Qafqaz İslam Ordusunun və azərbaycanlı qardaşlarımızın dillərdə dastan olan mübarizəsi ilə Bakının işğaldan azad olunmasının 100-cü ildönümünü qeyd etmirik, eyni zamanda, əziz şəhidlərimizin bizə əmanət olan "Bir millət, iki dövlət" deyə rəmzləndirdiyimiz qan qardaşlığımızı da dərk edirik" kəlmələri tarixə bir daha xatırlatdı ki, mənəvi birlik - ruhun eyniliyi bəşərin şəriksiz cığırdaşıdı...

Marş çağırışdı, döyüş əzmidi, qələbə ruhudu...

Marşa ruhun ruhu deyənləri kimsə qınaya bilməz.

Bu möhtəşəm paradda bir məqam da duyğusallıqla izlənildi: davullar səsləndi, bu səsləniş olmuş döyüşlərin zəfər sonluğunun çağırışıydımı, olacaq döyüşlərə çağırışıydımı? - yaratdığı könülləri tellendirən mənzərə də bölünməyən, bölünməyəcək ruhun zəmanəti kimi izlənildi) möhtəşəm ifa ürəkləri kükrətdi, düşüncələri coşdurdu; "Mehtaran" "Əsgər marşı"nı ifa etdi: "...marş, irəli, Azərbaycan əsgəri!". Həm də Azərbaycan dilində o qədər sevgilərlə, o qədər ilhamla, o qədər duyğusallıqla ifa etdi ki! Bu ifa Azərbaycan əsgərini Böyük Qələbəyə səsləyən ifa kimi dinlənildi, izlənildi...

Qafqaz İslam Ordusunun süvari və piyadalarının gəlişi də, tribuna önündən qürurla keçməsi də həm tarixə ehtiram kimi izlənildi, həm də rəmz kimi - 100 ilin o üzündən gəlib 100 illərin o üzünə gedən qalibiyyətin ifadəsi kimi...

Qədim mənbələrdə şumerlərin, hunların, göytürklərin,... süvariləri haqqında "yel qanadlı atlılar" təyini işlədilib. Oğuzların, ağqoyunluların, eldəğəzlərin, səfəvilərin,... süvariləri haqqında da belə fikirlər səslənib. Qafqaz İslam Ordusunun süvariləri yelqanadlı atlıların varisləridi. Varislərin hərbi mundirində tribuna önündən Qafqaz İslam Ordusunun süvariləri, piyadaları keçəndə min illərin o üzündə qalanlar da xatırlandı. Bu parad ona görə möhtəşəm paradıydı ki, zaman arasında mənəvi bağlılıq yarada bilmişdi. "Yüyənini çeynəyən atların" nallarının Azadlıq meydanıyla təmasından yaranan səs Qobustanın qaval daşının səsinin eyni idi və sanki "gedirik, siz də gəlin!", - deyirdi. Kimsə "hara?" soruşmazdı, hamı bilirdi ki, bu gedişin ünvanı Qarabağdı, Laçındı, Şuşadı, Kəlbəcərdi, Ağdamdı, Füzulidi, Cəbrayıldı, Qubadlıdı, Zəngilandı, döyüşdü, qələbələrdi, Böyük Qələbədi....

O dönməz, o gözəl səs tarixin səsiydi, o səs deyirdi ki, yerlər göyə dikələ bilər, göylər yerə ələnə bilər, ancaq bu qardaşlığa zaval olmayıb, yoxdu, olmayacaq; parad bu qənaətin dönməzliyi kimi izlənildi...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna cari il oktyabrın 1-dək 94.005.457,49 AZN, 213.577,88 ABŞ dolları, 12736,0 avro və 5000,0 rubl vəsait daxil olub.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***2 oktyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 34 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, İcevan rayonunun Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Fərəhli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər, Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Baş Qərvənd, Kəngərli, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Ön xətdən reportaj

# "Amalımız Vətəni qorumaqdır"



*Azərbaycan hər zaman igid oğulları ilə fərqlənən məmləkət olub və bu proses günümüzədək davam edir. Tarixə nəzər salsaq görərik ki, sərkərdələrimiz Vətənimizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda hər zaman mübarizə aparıblar. Uzaq tarixdə Babək, Cavanşir, Xətai, müasir dönəmdə Mübariz, Fərid, Raquf, Urfan və adlarını çəkmədiyim yüzlərlə qəhrəmanlarımız, mərd oğullarımız öz canları bahasına da olsa, Vətəni düşmən hücumundan müdafiə edib, torpaqlarımızın bütövlüyü uğrunda qanını əsirgəməyib, sonadək mübarizə aparıblar.*

"Tarixi qəhrəmanlar yazır" deyirlər. Qəhrəman ata-babalarımızın yazdığı salnamə bu gün hər birimiz üçün vətənpərvərlik nümunəsidir. Bu torpağın yetişdirdiyi mərd oğullar Vətənə xidməti özünə şərəf borcu bilərək döyüşlərə girib, düşmənin cavabını artıqlaması ilə veriblər. Üzərində yaşadığımız, boya-başa çatdığımız torpaq ata-babalarımızın bizə əmanətidir. Vətənini sevən hər bir kəsin üzərinə düşən mühüm vəzifə bu torpaqları göz bəbəyi kimi qorumaqdır. Bu gün düşmənlə təmas xəttində xidmət edən vətənpərvər oğullarımız da ərazi bütövlüyümüz uğrunda gecə-gündüz ayıq-sayıq xidmət edirlər. Havanın isti və soyuq, relyef şəraitinin dağ-dərə, düzəngah olmasından asılı olmayaraq onların yeganə müqəddəs amalı şərəflə xidməti borclarını yerinə yetirməkdir. Bizlər bu məmləkətdə rahat yaşayırıqsa, buna görə ön xətdə xidmət edən oğullarımıza borcluyuq.



Bu gün hər birimiz böyük güvən hissi ilə - torpaqlarımızın müdafiəsi əmin əllərdədir, - deyirik.

2016-cı ilin aprel döyüşlərində xüsusi rəşadət göstərmiş hərbi hissələrdən birində olduğumuz zaman gördüklərimiz bir daha təsdiqlədi ki, torpaqlarımızın müdafiəsi əmin əllərdədir.

Məsul zabitlərdən biri mayor Orxan Nəsirovun müşayiəti ilə təmas xəttinə, Vətənin keşiyində duran oğullarımızla görüşə gedirik. Yolboyu ərazilərlə bizi tanış edən zabit, bu yerlərin Vətənə qazandırdığı qəhrəman oğullardan bəhs edir. "Gördüyünüz bu ərazilər vaxti ilə müharibənin qızğın nöqtələri olub. Bu torpaqdan neçə-neçə qəhrəman oğullar çıxıb. Horadiz əməliyyatı Azərbaycan Ordusunun tarixi qələbəsinin əsasını qoyan qələbə oldu. Bundan da böyük qələbələrin şahidi olacağıq. Tarixən məmləkətimiz qəhrəmanlar oylağı olub. Bu gün burada düşmənlə təmas xəttində xidmət edən əsgərlərimiz həmin vətənpərvər oğullarımızın varisləridir. Adını tarixə yazmış qəhrəman oğullarımızı özlərinə örnək bilən şəxsi heyətin döyüş ruhu həmişə yüksəkdir".

Ön xətdə tanış olduğumuz, 2003-cü ildən ordu sıralarında xidmətdə olan mayor Həşim Həşimov bu peşəni seçməsində əsas rol oynayan amillərdən söz açır. "Babam İkinci Dünya müharibəsində iştirak edib. 416-cı Taqanroq milli atıcı diviziyanın tərkibində döyüşən babam Həşim Həşimov polkovnik-leytenant rütbəsinə qədər yüksəlib. Onun yolunu davam etdirməyin və adını yaşatmağın həvəsi idi ki, hərbçi olmağı qarşıma məqsəd qoydum. Artıq 15 ildir ki, Azərbaycan Ordusunun zabitiyəm. Dünyanın aparıcı orduları sırasında qərarlaşan ordunun ön xətdə xidmət edən zabiti adını daşımaq mənim fəxarət hissimi daha da artırır. Vətəninə, millətinə bağlı olan hər bir şəxsin amalı - torpaqlarını tezliklə işğaldan azad etmək, vəzifəsi isə - o müqəddəs torpaqları müdafiə etməkdən ibarətdir. Vətəninə layiqli şəxs olmaq - layiqli ailə başçısı, layiqli ata, layiqli vətəndaş olmaq deməkdir".

Şəxsi heyətin döyüş hazırlığından bəhs edən mayor Həşim Həşimov postda dayanan əsgərlərin ayıq-sayıq xidmət etməsindən də söz açır. "Postda düşmən təxribatlarının, atəşkəsin pozulması hallarının qarşısının vaxtında alınmasında döyüş hazırlığı əsas rol oynayır. Bölməmizin zabitləri tərəfindən şəxsi heyətin hərbi vərdişlərinin artırılmasına və əsl döyüşçü kimi formalaşmasına yönəlik təlimlər həyata keçirilir. Döyüş hazırlığından əlavə, şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti də diqqətdə saxlanılır. Tez-tez tərbiyəvi xarakter daşıyan mədəni-kütləvi tədbirlər təşkil edilir. İctimai-siyasi hazırlıq dərsləri şəxsi heyətin dünyagörüşünün artırılmasına, mənəvi-psixoloji cəhətdən formalaşmasında mühüm rol oynayır".

Postda istər zabitlər, istərsə də şəxsi heyət tərəfindən sevilən, işində məsuliyyətli olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ramin Sadıqovla tanış oluruq. Söhbət zamanı Ramin şəxsi heyətin vətənpərvərlik ruhunun yüksək səviyyədə olmasından danışır. "Ön xətt Vətəninə canı ilə, qanı ilə bağlı olanların yeridir. Bölməmizin şəxsi heyəti postlarda ayıq-sayıq xidmət aparır. Düşmənin atəşkəsi pozmaq cəhdinin qarşısı bölmələrimiz tərəfindən vaxtında alınır. Azərbaycan Ordusunun əsgəri düşmənin xalqımıza qarşı vəhşiliklərini, insanlığa sığmayacaq qəddarlıqla törədilən cinayətlərini heç bir zaman bağışlamayacaq. Hər birimiz Ali Baş Komandanımızın əmrinə hazırıq və düşməndən qisas alacağımız günü səbirsizliklə gözləyirik."



Əsgər Abid Əliyev hərbi xidmətə Bərdə rayonundan çağırılıb. Abid bildirir ki, əmisi Qarabağ müharibəsində iştirak edib. "Vətənimi düşmənlə təmas xəttində yerləşən səngərlərdə müdafiə etmək mənim üçün şərəfdir. Əmim də Qarabağ döyüşlərində düşmənə qarşı bu yerlərdə vuruşub. Onun hərbi xidmətə gəldiyim gün mənə dediyi söz hələ də xatirimdədir. "Qoynunda böyüyüb boya-başa çatdığın Vətəni Anan qədər müqəddəs bil və onu qoru!" Burada keçirdiyim hər gün Vətən anlayışını daha dərindən dərk edir, müdafiəsi üçün yeri gəlsə canımı və qanımı əsirgəməməyi özümə borc bilirəm".

Əsgər Azər Cəfərli isə hərbi xidmətini aprel döyüşlərində düşmənin cavabını layiqincə verən bölmənin əsgəri kimi davam etdirməyin qürurundan danışır. "Aprel döyüşlərini televiziyadan izləyirdim və əsgər olacağım günün həsrətindəydim. Uca Tanrının mənə hədiyyəsidir ki, xidmətimi məhz aprel döyüşlərində tarixi ərazilərimizin bir qismini işğaldan azad edən hərbi hissənin əsgəri kimi davam etdirirəm. Mən və silahdaşlarım işğal altında olan digər ərazilərimizin azad olunmasında iştirak etmək arzusundayıq". Həmsöhbətim, həmçinin gözəl avazı ilə də seçilir. Bizim və şəxsi heyətin istəyini yerə salmayan Azər hər birimizin dilinin əzbəri olan (musiqisi və sözləri Bəhram Nəsibova aid olan) "Anadır arzulara hər zaman Qarabağ" mahnısını ifa edərək könlümüzü oxşadı.

Əslən Quba rayonundan olan əsgər Sultan Qurbanov bildirir ki, hərbi xidmətdə insan istər fiziki, istərsə də mənəvi-psixoloji cəhətdən möhkəmlənir, əsl döyüşçü kimi yetişir. "Komandirlərimiz tərəfindən bizə keçirilən dərsləri dərindən mənimsəyir, bütün tapşırıqları operativ və dəqiq yerinə yetirmək iqtidarında olan Vətən müdafiəçisi kimi formalaşırıq. Döyüş növbətçiliyinə çıxarkən düşmənin yerləşdiyi mövqelərə baxıb fikirləşirəm ki, bu ərazilərin geri qayıdacağı gün uzaq deyil. Tək arzum odur ki, torpaqlarımızın işğaldan azad olunacağı döyüşdə mən də iştirak edim. Hər birimiz silah əlimizdə düşmənin cavabını verməyə hazırıq. Fərqli bölgələrdən gəlsək də, amalımız birdir - Vətənimizi müdafiə etmək".

Digər əsgərlər Ruslan Əzimov, Ceyhun Məmmədov, Elçin Məhəmmədov Vətəni azad görməyin həsrəti ilə yaşadıqlarını bildirdilər. Qeyd etdilər ki, Ali Baş Komandanın əmrini gözləyirik...

**Leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

# Hərbi dənizçilərlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nümayəndələrinin görüşü keçirilib



Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında imzalanan 2018-ci il üçün birgə tədbirlər planına əsasən, Hərbi Dəniz Qüvvələrində görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə komitənin rəsmi nümayəndəsi "Radikal dini cərəyanlar və onların təzahür formaları" mövzusunda geniş məruzə ilə çıxış edib.

Sonda görüş iştirakçıları mövzu ilə əlaqəli aktual məsələləri müzakirə edib və bu cür tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

# Azərbaycan Ordusunda “NATO günləri” keçirilir

Azərbaycan Ordusunda "NATO günləri" tədbiri keçirilir.

NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin rəisi general-mayor Odd Egil Pedersenin rəhbərlik etdiyi nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Hərbi Hava Qüvvələri komandanlığını ziyarət edəcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir çərçivəsində zabit və kursant heyəti üçün "NATO-nun strukturu və vəzifələri", "Azərbaycan-NATO əməkdaşlığı", "NATO-nun Əməliyyat İmkanları Konsepsiyası", "NATO və Kibertəhlükəsizlik" və digər mövzularda mühazirələr təqdim olunacaq.

Azərbaycan Ordusunda "NATO günləri" oktyabrın 5-dək davam edəcək.

# Əlahiddə Ümumqoşun Orduda təşkil edilmiş ixtisas hazırlığı kursları başa çatdı

*Bu ilin iyul ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlər Əlahiddə Ümumqoşun Orduda təşkil edilmiş ixtisas hazırlığı kurslarını uğurla başa vurdular.*



Kurslar zamanı siniflərdə nəzəri cəhətdən, Təlim-Tədris Mərkəzindəki trenajorlarda isə virtual olaraq mənimsənilən vərdişlər poliqonlarda keçirilən praktiki məşğələlərdə və təlim-atış çalışmalarında daha da təkmilləşdirildi.

İxtisas hazırlığı kurslarının uğurla başa çatması münasibətilə Əlahiddə Ümumqoşun Orduda tədbir keçirildi.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Çıxış edən zabitlər, əsgərlər və valideynlər kurslarda fəallıq göstərərək yenilməz döyüşçü keyfiyyətlərinə yiyələnən gənclərə xidmətlərində uğurlar arzuladılar.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırıldı. Bildirildi ki, bu ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklər düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli ərazilər ələ keçirilib. Dövlət qayğısını hər zaman üzərində hiss edərək kurslarda peşəkar döyüşçü kimi yetişən hərbçilərimizin qətiyyəti sayəsində hərb tariximizə qızıl hərflərlə yazılan "Günnüt əməliyyatı" uğurla nəticələnib. İnanırıq ki, hər bir əsgər kurslarda qazandığı biliklərə bundan sonra da Vətənimizin müdafiəsində ayıq-sayıq dayanacaq, xalq-ordu birliyindən ruhlanaraq nümunəvi xidməti ilə valideynlərinə başucalığı gətirəcək.

Tədbirdə ixtisas hazırlığı kursunu başa vurmuş əsgərlər fiziki hazırlıq üzrə silahsız və silahlı çalışmalar kompleksini, gözü bağlı vəziyyətdə natamam sökülüb-yığılmasını, minaatan qurğuların “döyüş” və “səfər” vəziyyətinə gətirilməsini, mina sahəsinin qurulmasını və keçidlərin açılmasını, rabitə vasitələri ilə fəaliyyət göstərilməsini praktiki yerinə yetirdilər.

Ən yaxşı tabor, bölük və taqım adına layiq görülən bölmələrə keçici bayraqlar təqdim edildi və nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırıldılar.

Bölmələrin tribuna önündən təntənəli keçidindən sonra "Əsgər marşı" ifa edildi.

Sonra iyul ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış və ixtisas hazırlığı kurslarını uğurla bitirmiş əsgərlər növbəti xidmət yerlərinə yola salındılar.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi,
foto
əsgər
Turqut KƏRİMZADƏNİNDİR**

*Döyüş hazırlığı*

# Yolumuzu gözləyən Qarabağımızı geri qaytaracağıq!

Dövlətin müstəqilliyinin qarantı olduğu üçün ölkə rəhbərliyi ordu quruculuğuna xüsusi diqqət və qayğı göstərir. Ordumuzun gücü və imkanları müstəqilliyimizin sarsılmazlığına inamı artırır. Aparılan islahatlar nəticəsində ordumuz ən müasir silah və texnikalarla təchiz olunub. Bütün bunlar qətiyyətlə deməyə imkan verir ki, ordumuz dünyanın ən güclü orduları sırasındadır. Yuxarı komandanlığın qarşımıza qoyduğu məqsədlərdən biri də hərbçilərimizin əhval-ruhiyyəsinin yüksəldilməsi, mənəvi-psixoloji vəziyyətinin yaxşılaşdırılması, ixtisas hazırlığının təkmilləşdirilməsi və daim döyüşə hazır olmasıdır. Əsgərlərimizin döyüş qabiliyyətinin artırılması üçün mütəmadi olaraq nəzəri və praktiki məşğələlər keçirilir.

Ezamiyyətdə olduğumuz hərbi hissədə əsgərlərimizin dərs prosesini izləmək imkanı qazanırıq. Hərbi hissənin zabiti polkovnik-leytenant Rauf Şirinov bildirdi ki, Vətəni müdafiə etmək hər bir vətəndaşın borcudur. "Bu gün ordu sıralarında xidmət edən əsgərlərimiz üzərlərinə düşən məsuliyyəti dərk edərək Vətənimizə layiqincə xidmət edirlər. Komandir heyəti də bu yolda onlardan köməklərini əsirgəmir, dövlətimizə layiqli vətəndaş kimi formalaşmalarına səy göstərir. Xalqımızın sülh, əmin-amanlıq şəraitində yaşaması üçün əsgərlərimizin döyüş hazırlığına xüsusi diqqət yetirilir. Tədris dövründə əsgərlərimizə taktiki, atəş, ixtisas hazırlığından dərslər keçirilir. Onların döyüş şəraitinə uyğunlaşmaları üçün praktiki məşğələlərin keçirilməsinə üstünlük verilir. Hərbçi kimi deyə bilərəm ki, ordumuzun qüdrətinə, döyüş bacarığına heç bir şübhə ola bilməz. Aprel döyüşləri və Günnüt zəfəri dünyaya bir daha sübut etdi ki, əsgərlərimizin döyüş ruhu olduqca yüksək səviyyədədir. İnanıram ki, tez bir zamanda xalqımıza Böyük Qələbənin sevincini yaşadacağıq!".



Leytenant Böyükağa Qənbərov isə qeyd etdi ki, şəxsi heyətimiz hər an Vətənimizi düşmənin təxribatlarından qorumağa, onların atəş nöqtələrini və hərbi texnikalarını məhv etməyə hazırdır: "Döyüş meydanında artilleriyanın rolu danılmazdır. Bu gün ordumuzun arsenalına ən yeni artilleriya silahları daxil edilib. Ancaq döyüşün gedişini texnika yox, şəxsi heyətin döyüş hazırlığı həll edir. Bunun üçün mütəmadi olaraq əsgərlərimizin döyüş hazırlığının artırılmasına diqqət yetiririk. Taqım komandiri olaraq tədris müəssisəsində mənimsədiklərimi əsgərlərimə öyrədirəm. Onlar da öz növbəsində dərslərdə fəal iştirak edir, hərbin sirlərinə dərindən yiyələnirlər".

Top komandiri əsgər Elməddin Mehdiyev söhbətimizə qoşularaq Azərbaycan Ordusunda xidməti ilə fəxr etdiyini bildirdi. "Komandirlərimizin bizlərə göstərdiyi diqqət və qayğı göz qabağındadır. Belə vətənpərvər komandirlərlə çiyin-çiyinə torpaqlarımızı yağılardan qoruduğumdan qürur duyuram. Asudə vaxtlarımızın səmərəli keçməsində onların əməyi böyükdür. Kitab, qəzet, jurnal oxuyur, müxtəlif növ maarifləndirici yarışlar keçiririk. Həmçinin ermənilərin işğal altında olan torpaqlarımızdan, yurd-yuvalarından didərgin düşən həmvətənlərimizdən danışırıq. Onların Vətən həsrətinə son qoyacağımız günü səbirsizliklə gözləyirik. Həyatda bir arzum var: Şuşada Daşaltı dərəsində gəzim, Çətir şəlaləsinin gözəlliyinə tamaşa edim".

- Xidmətə başlamazdan əvvəl çox həyəcanlı idim, - deyə əsgər Orxan Muradov söhbətə başladı. - Düşünürdüm ki, hərbi vərdişləri öyrənməkdə çətinlik çəkəcəm. Peşəkar komandirlərimizin köməyi və dəstəyi ilə hərbin sirlərinə dərindən yiyələndim. Mütəmadi olaraq döyüş, fiziki, mənəvi-psixoloji hazırlıqdan dərslər keçirik. Bu yolda bir amalımız var - Ali Baş Komandanımızın döyüş əmri ilə illərdir xalqımızın yolunu gözləyən Qarabağımızı azad etmək.

Əsgərlər Ramazan Baloğlanov, Gündüz Qurbanov, Sadiq Murtuzəliyev, Nicat Baxşəliyev və Dilqəm İsmayılov bildirdilər ki, əsas məqsədləri hərbi biliklərinin artırılmasıdır. Mütəmadi olaraq keçirilən nəzəri məşğələlərin praktiki mənimsənilməsi üçün məşğələlər, təlimlər keçirilir. Bunun nəticəsidir ki, Azərbaycan əsgəri hər an düşmənin təxribatlarına layiqli cavab verərək, onları geri oturtmağa hazırdır! Əsgərlərimizlə həmsöhbət olduqdan sonra bir daha əmin oldum ki, tez bir zamanda Ali Baş Komandanımızın döyüş əmri ilə o gözəl yerləri geri qaytaracağıq!

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

## Milli Qəhrəman Pəhləvan Fərzəliyevin xatirəsi anılıb

Horadiz şəhərindəki Heydər Əliyev Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı Pəhləvan Fərzəliyevin 60 illik yubileyi qeyd edilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Füzuli rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə keçirilən tədbir Azərbaycanın Dövlət himninin səslənməsi ilə başlayıb. Tədbirdə çıxış edənlər Milli qəhrəmanın mənalı həyat və qəhrəmanlıqla dolu döyüş yolundan danışıblar.

Məlumat verilib ki, Pəhləvan Əhliman oğlu Fərzəliyev 1958-ci il sentyabrın 27-də Füzuli rayonu Qobu Dilağarda kəndində anadan olub. O, polis zabiti kimi 1990-cı ildən doğma rayonunda xidmətə başlayıb. Füzuli rayonunun erməni silahlılarının hücumundan müdafiəsində şücaət göstərib. Onun şücaəti nəticəsində Xələfşə kəndində bir erməni bölüyü və bir zirehli avtomobil məhv edilib. Pəhləvan Fərzəliyev 1992-ci il aprelin 11-də Qacar kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olub. Füzuli rayonunun Qobu Dilağarda kəndində dəfn edilib. 1992-ci il oktyabrın 8-də ona Milli Qəhrəman adı verilib.

Tədbirdə Milli qəhrəmana həsr edilmiş "Şərəfli ömrün manifesti" sənədli filmi, həmçinin hərbi fotoqraf Nurəhməd Vəliyev tərəfindən çəkilmiş və Füzuli rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılan şəkillərdən ibarət fotokollaj nümayiş olunub.

*Gənc zabitlərimiz*

# "Azərbaycan əsgəri işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir"

*"N" hərbi hissəsində ezamiyyətdə olduğum zaman mayor Elşən Hüseynova nümunəvi gənc zabit haqqında yazı hazırlamaq istədiyimi bildirdim. Mayor E.Hüseynov tərəddüd etmədən leytenant Pərviz Emçiyevin adını çəkdi. O bildirdi ki, gənc zabitimiz xidmətə təzə başlasa da, ilk günlərdən çalışır ki, xidməti ilə seçilsin, nümunəvi olsun.*



Leytenant Pərviz Emçiyev "Vətənimizin hər qarış torpağı bizim üçün müqəddəsdir", - deyə söhbətə başlayır. - Ona heç kim laqeyd qala bilməz. Böyüyüb boya-başa çatdığımız torpaq uğrunda mübarizə aparmaq vətəndaşlıq borcumuzdur. Məhz bu amil vətənpərvərlik deməkdir. Vətənpərvər olmaq sadəcə sözdə deyil, gördüyümüz işdə, çəkdiyimiz zəhmətdə, fəaliyyətimizdə öz əksini tapmalıdır. Vətən sevgisi hər birimizin şəxsi istəklərini, arzularını üstələyir. Bunun üçün xalqımızın, Vətənimizin taleyi hər birimizin taleyinə çevrilməlidir. Uşaq yaşlarımdan düşmənlərimizdən qisas alacağım günün həsrətiylə böyümüşəm. 2011-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə sənədlərimi təqdim etmək istəyimi valideynlərimə bildirdim. Onlar da məni dəstəklədilər. Ən çox sevinən babam oldu, çünki hərbçi olmaq onun da arzusu olub. Hərb peşəsinə liseydə yiyələnməyə başladım. Məşğələlərdən əlavə, komandirlərimin biliklərindən də bəhrələnməyə çalışırdım.

Həmsöhbətim Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində leytenant hərbi rütbəsinin ona təqdim olunduğu günü heç vaxt unutmayacağını bildirdi: "Ali Hərbi məktəbi bitirdiyim gün məqsədimə doğru gedən yolu artıq yarılamışdım. Əminliklə deyə bilərəm ki, əgər qarşına bir məqsəd qoysan, ona can atsan, mütləq nail olacaqsan. Bizim də yalnız bir amalımız var - işğal olunmuş torpaqlarımızdan erməni qəsbkarlarını qovub çıxartmaq. Bu yolda canımızdan belə keçməyə hazırıq. Çünki bu yol haqq yoludur, bu yol qəhrəmanların yoludur. Milli Qəhrəmanımız Mübariz İbrahimov da bilə-bilə ki, döyüşdən sağ-salamat qayıda bilməyəcək, Vətənimizə olan bağlılığını, sevgisini şəhadətə yüksələrək sübut etdi. O, Azərbaycan əsgərinin gücünü, qüdrətini, mərdliyini bütün dünyaya nümayiş etdirdi. Misilsiz qəhrəmanlıq göstərən igidimizin həyat yolu əsgərlərimizə örnəkdir. Sıralarımızda Mübarizlərin sayının çoxalması üçün əsgərlərimizi düşmənə nifrət və döyüşkən ruhda tərbiyə etməliyik."

Leytenant Pərviz Emçiyev onu da qeyd etdi ki, əsgərlərin döyüş, mənəvi-psixoloji, fiziki hazırlığının artırılmasında zəhmətini əsirgəmir. "Çalışıram ki, əsgərlərim yüksək döyüş hazırlığına malik olsunlar. Ən mürəkkəb şəraitdə döyüş tapşırığını yerinə yetirə bilsinlər. Belə əsgərlərdən biri də Tapdıq Məmmədovdur. Digər əsgər yoldaşları kimi o da öyrədilənləri dərindən mənimsəyir. Şəxsi heyət dərk edir ki, torpaqlarımızı geri qaytarmalıyıq. Gələcək döyüşlərin iştirakçısı olmaq ən böyük arzumdur. Çünki mən qalib ordunun zabiti olmaq istəyirəm. Düşmənlərimiz də bilsinlər ki, Azərbaycan əsgəri işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir".

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsinin ilk tədbiri keçirilib

*Sentyabrın 28-də Respublika Veteranlar Təşkilatı (RVT) Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Yeniyetmə, gənc və universitet tələbələri arasında vətənpərvərliyin təbliği ilə bağlı görüşlərin keçirilməsi" layihəsi çərçivəsində ilk tədbir keçirib.*






AZƏRTAC xəbər verir ki, tədbirin əsas məqsədi yeniyetmə və gənclər arasında vətənpərvərliyin təbliğ edilməsi, Vətən yolunda canından keçmiş və əvəzsiz xidmətləri olan şəxslərin tanıdılması, gənc nəslə onların həyat və fəaliyyətlərinin örnək olaraq təbliğ edilməsidir.

Azərbaycanın Dövlət himninin səslənməsi ilə başlayan tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə RVT-nin sədr müavini polkovnik Cəlil Xəlilov layihə barəsində, eləcə də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında təşkilatın fəaliyyəti, keçirilən tədbirlər haqqında məlumat verib, bu sahədə veteranların üzərinə düşən vəzifələrdən danışıb.

C.Xəlilov deyib: "Bu gün biz vətənpərvərliyin təbliğ olunması istiqamətində həyata keçirilən layihənin ilk tədbirinə toplaşmışıq. Şəhidlərimizə həsr olunmuş belə layihələr hər bir azərbaycanlı üçün çox böyük əhəmiyyət kəsb edir. Şəhidlər Vətəni yaşatmaq naminə qanlı döyüşlərə atılaraq babalarımızın bizlərə əmanəti olan bu doğma yurdu canları, qanları bahasına müdafiə ediblər. Onlar düşmənə ağır zərbələr vuraraq Azərbaycanın qəhrəmanlıq, mərdlik tarixinə yeni, silinməz səhifələr əlavə ediblər. Hər birimiz onlara olan borcumuzu yerinə yetirməli olduğumuzu bir an da unutmamalıyıq. Xüsusilə gənclər onların hər birinin həyat yolu və döyüş zamanı göstərdikləri qəhrəmanlıq nümunələri barədə məlumatlandırılmalı, Vətəni, xalqı müdafiə etməkdə hər cür fədakarlığa hazır olmalıdırlar.

Təşkilat belə tədbirləri yalnız layihələrlə əlaqədar deyil, il ərzində müvafiq tədbirlər planı əsasında müntəzəm olaraq keçirir. Bu çərçivədə ölkənin dörd regionunda əsasən gənclərin iştirakı ilə silsilə tədbirlər keçirilib. Bu layihəyə əsasən Qarabağ, eyni zamanda, aprel döyüşlərində qəhrəmancasına şəhid olmuş gənclərin həyat və döyüş yolundan söhbət açılacaq. Layihə çərçivəsində görüşlərimiz davam edəcək, ali və orta məktəblərdə belə tədbirlər keçiriləcək. Bundan əlavə şəhidlərimizə həsr olunmuş bir kitabça da hazırlamışıq".

Tədbirdə Respublika Veteranlar Təşkilatının əməkdaşları çıxış edərək şəhidlərimizin xatirəsinin Azərbaycan xalqının yaddaşında daim yaşayacağını bildiriblər. Qeyd edilib ki, qəhrəmanlarımızın həyat və döyüş yolunun təbliği yeniyetmə və gənclərimizin maariflənməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Sonda iştirakçılara qəhrəman şəhidlərimizə həsr edilmiş maarifləndirici bukletlər paylanıb, xatirə şəkli çəkilib.

# Böyük Qələbəyə az qalıb



Azərbaycan Ordusunda komandir və şəxsi heyətlə iş üzrə zabitlərin qarşısında duran başlıca vəzifələrdən biri də əsgərlərə hərbi nizamnamələrin öyrədilməsi, onların tələbləri ilə yaşamaq və xidmət etmək hissini aşılamaqdır. Bu məqsədlə döyüş və ictimai-siyasi hazırlıq məşğələlərindən əlavə, məqsədyönlü təbliğat işləri də aparılır. Əsgərlərdə vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi-psixoloji və döyüş keyfiyyətlərinin formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin rolu böyükdür. Bu dərslərdə qrup rəhbərləri hərbi qulluqçulara döyüş növbəsi, qarovul və daxili naryad zamanı nizamnamələrdən irəli gələn nizam-intizamı aşılamaq imkanı qazanırlar.

"N" hərbi hissəsində keçirilən ictimai-siyasi hazırlıq dərsində şəxsi heyətə hərbi nizamnamələrin tələblərinin geniş izah olunduğunun şahidi oluruq. Polkovnik-leytenant Bəxtiyar Əliyev belə dərslərin əhəmiyyətindən söz açaraq bildirdi ki, qrup rəhbərləri əsas diqqətlərini əsgərlərimizin gündəlik naryadda vəzifə borclarını bilmələrinə, xidmətlərini nizamnamə çərçivəsində təşkil etmələrinə yönəldirlər. "Təsdiq edilmiş plana əsasən, şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin və qoşun xidmətinin yaxşılaşdırılması üçün günün, həftənin və ayın yekununda xidmətin təhlili aparılır. Bu zaman aşkar edilmiş nöqsanlar göstərilir, aradan qaldırılması üçün tədbirlər müəyyən edilir və xidmətdə fərqlənən əsgərlərimiz həvəsləndirilirlər. Bununla yanaşı, fərqlənənlər bölmənin aylıq divar qəzetində və döyüş vərəqələrində işıqlandırılır. Bu da əsgərlərimizin mənəvi-psixoloji vəziyyətinə müsbət təsir göstərir. Tabeliyimizdə xidmət edən hər bir əsgər Ali Baş Komandanımızın döyüş əmrini səbirsizliklə gözləyir. İşğal olunmuş torpaqlarımızdan, şəhidlərimizdən, yurdlarından didərgin düşmüş soydaşlarımızdan danışarkən hər birinin gözlərində qisas qığılcımını görməmək mümkün deyil."

Zabitlə birgə dərs prosesini izlədikdən sonra qrup rəhbəri kapitan Rəşad Məmmədovla həmsöhbət oluruq. Hərbçi olmaq Rəşadın uşaqlıq arzusu idi. O, 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. "Uşaqlıqdan hərbi mundiri daşımaq ən böyük arzum idi. AAHM-ə qəbul olduğum, hərbi formanı geyindiyim gün heç vaxt yadımdan çıxmaz. Həyatımın ən böyük arzusu reallaşmışdı. Təhsil aldığım müddətdə əsas məqsədim hərbin sirlərinə dərindən yiyələnmək idi. İndi isə çalışıram ki, öyrəndiklərimi əsgərlərimə aşılayım. Böyük Qələbə uğrunda döyüşlər başlayanda yüksək hazırlıqlı əsgərlərimizin sayəsində düşmən qüvvələrini darmadağın edəcəyik".

- Xidmət müddəti ərzində həyata başqa bucaq altından baxmağı öyrəndim, - bu sözləri Qaradağ rayonundan hərbi xidmətə çağırılan əsgər Cəsarət Həsənov dedi. - Hər bir Azərbaycan övladının həyatında hərbi xidmətdə keçən günlərin dəyəri böyükdür. Burada günün nizam qaydasına uyğun olaraq idman etməyi, vaxtlı-vaxtında qidalanmağı, asudə vaxtdan səmərəli istifadə etməyi və ən əsası məşğələlərdə Vətənimizin hərb tarixini öyrənirik. Bütün bunlar döyüşçü kimi formalaşmağımızda və cəmiyyətimizə layiq vətəndaş kimi yetişməyimizdə müstəsna rol oynayır. Çalışırıq ki, yaradılmış şəraitdən səmərəli istifadə edək, döyüş meydanında komandirlərimizin etimadını doğruldaq, xalqımıza Böyük Qələbə sevincini bəxş edək.

Artıq xidmətim sona çatır. Məndən sonra xidmətə gələn silahdaşlarıma ayıq-sayıq olmağı, hərbin sirlərinə dərindən yiyələnməyi, təmkinli olmağı və hərbi formanı daim səliqəli daşımalarını tövsiyə edirəm. Xidmətim ərzində komandirlərimiz diqqət və qayğılarını bizdən əsirgəməyiblər. Elə zabitlərimiz var ki, onlar yaddaşıma əbədi həkk olunublar. Tərxis olunduqdan sonra əlaqə saxlayacağım zabitlərdən biri də leytenant Pərviz Emçiyevdir. O, hər zaman şəxsi heyətlə vətənpərvərlik mövzusunda söhbətlər aparır, işğal altında olan torpaqlarımızın zəngin təbiətindən danışır, Vətən torpaqları uğrunda canından keçən şəhidlərimizdən bizlərə geniş məlumat verir.

- Bu gün fəxr edirəm ki, belə vətənpərvər komandirlərimizlə çiyin-çiyinə xidmət edirəm, - bu sözləri isə Xaçmaz rayonundan hərbi xidmətə çağırılan əsgər Seymur Məmmədov bildirdi.

Əsgərlər Rəcəb Həmidli, Elşən Əliyev, Vüqar Fətullayev və digərləri Vətənin müqəddəs olduğunu, işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda göz qırpmadan canlarından keçməyə hazır olduqlarını bildirdilər. Belə cəsur oğullarımızla tanış olduqca bir daha əmin oluram ki, Böyük Qələbə gününə az qalıb.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**



# Uğur əldə etməkdə fiziki hazırlıq da əsasdır

Azərbaycan Ordusunda əsgərlərin hərtərəfli hazırlıqlı olmasında fiziki hazırlığın böyük əhəmiyyəti var. Qaçış, tullanma, qaməti düzgün inkişaf etdirən və s. hərəkətlərin təlimi əsgərlərə sürət, çeviklik, dözümlülük kimi fiziki və psixoloji keyfiyyətlərin tərbiyə olunmasına kömək edir, bu da onları gələcək qələbə ruhlu döyüşlərə hazırlayır. Fiziki hərəkətlərlə müntəzəm məşğul olan əsgərlər möhkəm və sağlam olur, müəyyən bir işi daha tez və keyfiyyətlə yerinə yetirirlər. İdman insanın fiziki gücündə, çəldliyində, reaksiya qabiliyyətində, sağlamlığında olduqca böyük əhəmiyyət kəsb edir. Döyüşdə uğur əldə etmək və qələbəni qazanmaq üçün şəxsi heyətin həm fiziki, həm də psixoloji cəhətdən yüksək səviyyədə olması vacib şərtdir. "N" hərbi hissəsində şəxsi heyətin fiziki hazırlığının yüksək səviyyədə olmasının şahidi olduq.

Hərbi hissənin şəxsi heyəti ilə birlikdə fiziki hazırlıqla məşğul olan gənc zabitimiz baş leytenant Şirxan Əliyevlə həmsöhbət oluruq.

- Ölkə rəhbərliyinin göstərdiyi diqqət və qayğı nəticəsində burada müasir standartlara uyğun formalaşdırılan idman şəhərciyi hərbi qulluqçularımızın idmanın növləri ilə məşğul olmasına geniş şərait yaradıb, - deyə söhbətə başlayan baş leytenant Şirxan Əliyev idmanın hər bir kəs üçün əhəmiyyətli olduğunu vurğuladı. Həmkarım bildirdi ki, şəxsi heyətin idmana olan marağının artırılması məqsədi ilə yarışlar təşkil olunur: "Həmin yarışlarda fərdi və yaxud komanda şəklində yer qazanan hərbi qulluqçularımız mükafatlarla təltif olunurlar. Döyüşdə uğur əldə etmək üçün hərbi qulluqçuların fiziki hazırlıqları yüksək səviyyədə olmalı, onlar verilən tapşırıqları çəld və vaxtında yerinə yetirməli, müəyyən məsafəni qət etməlidirlər. Burada əsas məqsəd döyüşçünün sağlamlığını, iradəsini, dözümlüyünü yüksəltməkdir. Buna görə də şəxsi heyətlə günün nizam qaydasına uyğun olaraq hər gün fiziki hazırlıq məşğələləri keçirilir".

Baş leytenant Şirxan Əliyevin şəxsi heyətə idmanı vahid komanda şəklində həyata keçirməsi və bir nəfər kimi həyata keçirilən məşğələ məndə xoş təəssürat yaratdı. "Vətən sənə canım fəda", "Şəhidlər ölməz, Vətən bölünməz", "Hər şey Vətən üçün" şüarları altında reallaşdırılan idman məşğələsi mənim də inamımı bir daha artırdı - bu oğullar Lələtəpədə, Bayraqtəpədə qazanılan uğurları davam etdirəcək, Böyük Qələbəylə tamamlayacaqlar.



Hərbi xidmətə Kürdəmir rayonundan çağırılan əsgər Fəyyaz Piriyev söhbət zamanı bildirdi ki, torpaqlarımız uğrunda canından keçməyə o da hər zaman hazırdı: "Mən və əsgər yoldaşlarımın bir məqsədi var - torpaqlarımızı işğaldan azad etmək. Buna qadirik, dözümlüyük, səbrliyik, iradəliyik, güclüyük. Məqsədimizə çatmaq üçün komandirlərimizin səyi nəticəsində fiziki hazırlığımızı artırmalıyıq. Hər gün daha güclü olmalı, müharibədə ermənilərə qan uddurmalı, ömürlük onların yaddaşlarına həkk etdirməliyik ki, Azərbaycan Ordusu nəyə qadirdir".

Əsgər Orxan Qudlasov bildirdi ki, məktəbdə oxuyanda ermənilərin millətimizə qarşı insanlıqdan kənar hərəkətlərini o da unutmayacaq. "Onların bizim dinc sakinlərimizə verdiyi əzabların, körpələrin, qocaların, hamilə qadınların başlarına gətirdiyi işgəncələrin tarixdə analoqu yoxdur. Torpaqlarımız uğrunda canlarından keçən, şəhid olanların qisasını almaq naminə fiziki cəhətdən güclü olmalı idim və buna görə də idmanla məşğul olmaq qərarına gəldim. Hərbi xidmətə gəlməmişdən əvvəl kikboksinq idman növü ilə məşğul oldum və yüksək nailiyyətlər əldə etdim. Komandirlərimizə minnətdarlığımı bildirirəm ki, bizlərin fiziki cəhətdən möhkəm olması, əsgərlərdə ruh yüksəkliyinin yaradılması, onlara mənəvi-psixoloji cəhətdən dəstək olmaları üçün əllərindən gələni əsirgəmirlər. Taborumuzda tez-tez yarışlar təşkil olunur və həmin yarışlarda mən də iştirak edirəm".

Kiçik çavuş Qadir Davudzadə, əsgərlər Kamran Əliyarlı və Mahir Cəbrayılov da fiziki hazırlığın şəxsi heyətin formalaşmasında böyük əhəmiyyət kəsb etdiyindən söz açdılar və bildirdilər ki, fiziki hazırlıq sağlamlıqdır, insanda iradəni, dözümü, gücü artırmaq üçün əsas vasitədir. Hər bir insan sağlam olmalıdır. "Necə deyərlər, kim 100 il yaşamırsa, günah özündədir; sağlam bədəndə sağlam ruh olar. Bu kimi deyimlər sübut edir ki, hərbi qulluqçu həm fiziki hazırlıq, həm də döyüş hazırlığı baxımından fərqlənməlidir ki, döyüşdə uğur əldə edə bilsin".

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# İkiqat sevinc

**1918**-ci il mayın 28-də Şərqdə ilk Demokratik Respublika - Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Cümhuriyyət öz müstəqilliyini Tiflisdə elan etdi. Lakin Gürcüstan hökumətinin tələbindən sonra Azərbaycan Xalq Cümhuriyyəti öz iqamətgahını Gəncəyə köçürtdü. Azərbaycan öz müstəqilliyini elan etdiyi ərəfədə torpaqlarımız yadelli işğalçıların - daşnakların, menşeviklərin, ingilislərin hücumuna məruz qalmışdı. Belə bir vaxtda gənc Cümhuriyyətin qarşısında duran əsas məsələlərdən biri də Bakının işğaldan azad edilməsi idi. Azərbaycana ilk dəstək qardaş Osmanlı İmperiyasından gəldi. 1918-ci il iyunun 4-də Batumidə imzalanan müqavilə ilə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə məhz Osmanlı İmperiyası oldu. Bu müqavilədə xüsusi bir maddə də yer aldı. Əgər ehtiyac yaranardısa, Osmanlı İmperiyası Azərbaycana hər cür hərbi və maddi yardım edəcəkdi. Məhz bu maddəni əsas götürən Milli Şuranın sədri M.Ə.Rəsulzadə Osmanlı İmperiyasından yardım istədi. Bundan sonra Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Bakını düşmən işğalından azad etmək üçün Azərbaycan istiqamətində irəlilədi. Azərbaycanlıların və osmanlıların birləşmiş qoşunları bir çox bölgələrdə bolşeviklərin və Bakı Xalq Komissarları Sovetinin bütün qüvvələrini darmadağın edərək Bakıya yaxınlaşdılar. Bakını sentyabrın 15-də düşmən işğalından azad etdilər. sentyabrın 17-də isə Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan olundu. Bu il Bakının azad olunmasının 100 illiyi qeyd edilir. 15 sentyabr 2018-ci ildə keçirilən təntənəli paradda bütün ordu sahələri ilə yanaşı, C.Naxçıvanski adına Hərbi Liseyin kursantları da iştirak etdilər. Fəxrlə deyə bilərik ki, bu hərbi yürüş kursantların Vətənə olan sevgisini, humanizmini və xeyirxahlığını daha da artırdı.



Bu günə qədər torpaqlarımızın qorunması və geri alınması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərən, şəhid olan oğullarımızın sırasında C.Naxçıvanski adına Hərbi Liseyin məzunları da var. Bu da sübut edir ki, C.Naxçıvanski adına Hərbi Liseydə təhsil alan gənclər həm hərbi biliklərə dərindən yiyələnir, həm də xalqımızın qəhrəmanlıq ənənəsini yaşatmağı bacarırlar.

Təhsil və bilik insan həyatında ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində vacib rol oynayır. Elm, təhsil, eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir meyardır.

Bilik dəyərli, qiymətli bir xəzinədir. Elm o qədər müqəddəsdir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilir. Biliksiz həyat o qədər də mənalı deyil. O adam xoşbəxtdir ki, elmə yiyələnir. Yorulmadan bilikləri öyrənir, müdriklərin zənginliyindən və qabiliyyətindən bəhrələnir.

Biz müəllimlər də çalışırıq ki, əxz etdiklərimizdən kursantlarımıza da öyrədək. Yaşayaraq mənimsənilən bilik daş üzərinə həkk edilmiş yazıdır. Elm və bilik insan həyatını mənalandıran, onu zənginləşdirən işıqlı bir yoldur. Müəllimlər bu işıqlı yolu əsrlər boyu davam etdirirlər. Odur ki, həyatımızı daha mənalı etmək, səmərəli yaşamaq üçün daha çox təhsilə, savada yiyələnməliyik. Bilikli insanlar yaşadığı cəmiyyətin bütün keyfiyyətlərini, mənsub olduğu millətin zəngin mənəvi dəyərlərini, tarixi şəxsiyyətlərini tanıyır, dilini, dinini təbliğ edir. Bilikli insan zəngin olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi, güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Sirr deyil ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək şəkildə ifadə etmək qabiliyyətindədir.

Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Kursantlarımız dərsə böyük diqqətlə yanaşır. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş, vətənpərvər, fədakar müəllimlərimizin rolu da danılmazdır.

Torpaqlarımızın işğaldan azad edilməsi, millətimizin azad, firavan yaşaması üçün bütün bilik və bacarıqlara yiyələnən vətəndaşlarımıza böyük ehtiyac vardır. Bu vətəndaşların böyük bir hissəsini də kursantlarımız təşkil edirlər. Elmi biliklərə sahib olan bir xalqın gücü qüdrətli, yenilməz olur. Bilikdən güclü bir qüvvə yoxdur, biliklə silahlanan ölkə məğlubedilməzdir. "Bilik başa tac, var dövlət boyuna boyunduruqdur", - deyib atalar. Bütün gənclərimizin bəzəyinin daş-qaş, var-dövlət yox, bilik olmasını arzulayıram.

**Gülsəda AMAN,**
**C.Naxçıvanski adına Hərbi Liseyin müəllimi**

# Şəxsi heyət asudə vaxtını səmərəli keçirir



*Cəbhə bölgəsində yerləşən bölmələrimizdə də şəxsi heyətimizin asudə vaxtı yüksək səviyyədə təşkil olunur. Onlar döyüş hazırlıqlarını artırmaq və hərbi vərdişlərə yiyələnməklə yanaşı, asudə vaxtlarını da səmərəli keçirirlər.*

"N" hərbi hissəsinin ön xətdə yerləşən bölməsində şəxsi heyətin asudə vaxtının necə keçirilməsi ilə maraqlandıq. Hansı kitabı, qəzeti və jurnalı oxuduqlarını, hansı televiziya verilişlərini izlədiklərini soruşduq. Öyrəndik ki, əsgərlər "Azərbaycan Ordusu" qəzetində daha çox idman və yeni silahlarla bağlı xəbərlərə maraq göstərirlər. Televiziyada hərbi vətənpərvərlik verilişlərinə böyük həvəslə baxırlar...

Leytenant Elşad Mirzəyev söhbətində bildirdi ki, bölməmizdə əsgərlərin asudə vaxtının təşkil olunması üçün hər bir şərait yaradılıb. "Onlar döyüş növbətçiliyindən sonra istirahət vaxtlarında qəzet, jurnal, bədii kitablar, tarixi janrda əsərlər oxuyur və mütaliyələrini artırırlar. Televizorda maraqlı konsert proqramlarını, idman yarışlarını, xüsusilə futbol yarışlarını izləyirlər və hər dəfə sovet dönəmində çəkilmiş Azərbaycan filmlərinə baxmaqdan yorulmurlar. "Yeddi oğul istərəm", "Uzaq sahillərdə", "Ögey ana", "Fəryad" və s. bədii filmlər əsgərlərimizin daha çox izlədiyi filmlərdi."



Tarixi düşmənlərimizin xalqımızın başına gətirdiyi müsibətlərdən söhbət açan gənc zabit onu da vurğuladı ki, ermәni cəlladlarının tarixən azərbaycanlılara qarşı törətdikləri soyqırımından, Xocalı faciəsindən mütəmadi olaraq əsgərlərlə söhbətlər aparır, bu barədə şəxsi heyətə ətraflı məlumatlar çatdırır və onları tarixi faciələrimizi, qan yaddaşımızı unutmamağa çağırır. "Əsgərlər əfsanəvi qəhrəman Mübariz İbrahimovun döyüş və həyat yolunu əks etdirən sənədli filmə maraqla baxırlar. Qarabağ müharibəsində torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün və ölkəmizin suverenliyi uğrunda ermәni quldurlarına qarşı döyüşmüş qəhrəmanlarımızı özlərinə örnək bilirlər."

Əsgərlər Hikmət Qasımov və İman İmanov hər bir azərbaycanlı gəncin öz Vətənini, dövlətinin tarixini, xalqının keçmişini, milli-mənəvi dəyərlərini öyrənməyə borclu olduqlarını və ata-babalarımızın qəhrəmanlıq ənənələrini yaşatmaqdan ötrü çalışdıqlarını dedilər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## İraqın şimalında 7 terrorçu zərərsizləşdirilib



Türkiyə Hərbi Hava Qüvvələrinin (HHQ) qırıcıları İraqın şimalında yerləşən Qara bölgəsindəki terror düşərgələrinə zərbə endirib.

Dəqiq hədəflərin vurulması nəticəsində 7 terrorçu zərərsizləşdirilib. Digər bir rəsmi məlumatda isə bildirilir ki, bir neçə gün əvvəl HHQ-nin atəşi nəticəsində Mardin vilayətinin Nusaybin rayonu ərazisində zərərsizləşdirilən iki terrorçunun şəxsiyyəti müəyyənləşdirilib. Onlardan biri axtarışda olan "Medya" ləqəbli təhlükəli PKK terrorçusudur.

## İndoneziyada 5,1 bal gücündə yeni zəlzələ olub



Oktyabrın 1-də İndoneziyanın Sulavesi adasında 5,1 bal gücündə yeni zəlzələ olub.

Yeraltı təkanların episentri 282 min nəfərin yaşadığı Palu şəhərindən 101 kilometr şimal-qərbdə, ocağı isə yer səthindən 10 kilometr dərinlikdə yerləşib.

Təbii fəlakət nəticəsində zərər çəkənlər və dağıntılar olub-olmadığı barədə hələlik məlumat verilmir.

Xatırladaq ki, sentyabrın 28-də Mərkəzi Sulavesi əyalətində 7,5 bal gücündə zəlzələ və sonrakı iki sutka ərzində 170-ə yaxın yeraltı təkan baş verib. Son məlumata əsasən, zəlzələ və 3-5 metr hündürlüyündə sunami nəticəsində 1,2 min nəfərdən çox insan həyatını itirib, yüzlərlə insan isə xəsarət alıb. Zəlzələdən zərər çəkən bölgələrdə minlərlə ev dağılıb, 16 min nəfər öz evlərini tərk etmək məcburiyyətində qalıb. Ölənlərin sayının artacağı istisna olunmur.

## ABŞ ilk dəfə "CV-22 Osprey" konvertoplanlarını Tokio ətrafında yerləşdirib



ABŞ silahlı qüvvələri Yaponiyada ilk dəfə "CV-22 Osprey" konvertoplanlarını rəsmi olaraq Tokio yaxınlığında, Fussa şəhərindəki Yokota hərbi bazasına yerləşdirib.

Yaponiya Müdafiə Nazirliyi xəbər verir ki, oktyabrın 1-də həmin baza 5 konvertoplan qəbul edib. Müdafiə naziri İtsunori Onodera bildirib ki, bu tədbirlər Yaponiyanın Asiya-Sakit okean regionunda təhlükəsizliyinə xidmət edir. Bununla yanaşı, nazir qeyd edib ki, Yaponiya ABŞ tərəfi ilə birlikdə konvertoplanların yerli sakinlərə təsirini azaltmağa və uçuşların təhlükəsizliyini təmin etməyə çalışacaq.

Yaponiya Müdafiə Nazirliyinə ABŞ konvertoplanlarının oktyabrın 1-də Yokotada yerləşdiriləcəyi barədə məlumat cari ilin avqustunda göndərilib. 2024-cü ilədək həmin bazadakı maşınların sayının 10-a çatdırılması nəzərdə tutulur. Həmin maşınlara qulluq etmək üçün 450 nəfər şəxsi heyətin də həmin bazaya köçürüldüyü bildirilir. "CV-22 Osprey" konvertoplanları cari ilin aprelində Tokio yaxınlığında keçirilən təlimlər zamanı artıq həmin bazada yerləşdiriliblər.

## İran-Pakistan sərhədində silahlı toqquşma baş verib



İran-Pakistan sərhədində terrorçularla İran İnqilabı Keşikçiləri Korpusunun (İİKK) silahlı birləşmələri arasında silahlı toqquşma baş verib.

Korpusun yaydığı yazılı açıqlamada xəbər verilir ki, sərhədin Seravan məntəqəsində bir qrup silahlanmış terrorçu gizli yollarla İran ərazisinə daxil olmağa cəhd edib. Aşkar edildiklərini görən terrorçular silahlı müqavimət göstəriblər. Baş verən silahlı toqquşma nəticəsində 4 terrorçu məhv edilib, ikisi isə yaralı olaraq saxlanılıb.

Baş vermiş insident ilə əlaqədar araşdırma aparılır. Terrorçular dindirilir və əlaqələri müəyyənləşdirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusu üzrə futbol birinciliyi başa çatdı



Son illər Azərbaycan idmanının tarixində şanlı səhifələr yazılıb. Ötən dövr ərzində Azərbaycanda idman və olimpiya hərəkatının inkişafında da böyük canlanma müşahidə olunub. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir. Ölkəmizdə idman strukturunun yenidən qurulması, yeni-yeni idman obyektlərinin, Olimpiya idman komplekslərinin inşa edilməsi bu sahənin inkişafı ilə bağlı möhkəm təməl yaradıb. Ölkəmizin bütün bölgələrində, o cümlədən hərbi hissələrində müasir səviyyəli idman infrastrukturu formalaşdırılıb. Bunun bəhrəsidir ki, bir çox beynəlxalq idman yarışları, olimpiyadalar respublikamızda təşkil olunur. İqtisadi, siyasi qüdrətini artıran dövlətimiz idman sahəsində də yeni-yeni uğurlara, qələbələrə imza atır. Ölkə ictimaiyyətinin böyük maraq və diqqət göstərdiyi idman növü olan futbolun inkişafına da xüsusi önəm verilir. Kütləvilik qazanan futbol oyunu hərbçilər tərəfindən də sevilir. Artıq 20 ildir ki, Azərbaycan Ordusunda futbol birinciliyi keçirilir.

"N" hərbi hissəsində keçirilən Azərbaycan Ordusunun futbol birinciliyi hərbi qulluqçuların futbol oyununa böyük maraq və diqqətin təzahürünə çevrildi. Yarış iştirakçıları hərbi hissədə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoydular. Ulu Öndərin və şəhidlərin xatirəsi yad edildi.

Yarış hərbi orkestrin müşayiəti ilə müstəqilliyin rəmzi olan Dövlət himninin oxunması ilə başladı. Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin Döyüş Hazırlığı İdarəsinin Fiziki Hazırlıq və İdman şöbəsinin rəisi polkovnik Sadiq Paşayev çıxış etdi: "Müstəqillik qazandıqdan sonra ölkəmizdə bütün sahələrlə yanaşı, idmanın da inkişaf etdirilməsinə dövlət rəhbərliyi tərəfindən əvəzsiz diqqət və qayğı göstərilir. Ulu Öndər tərəfindən əsası qoyulan idmanın inkişaf strategiyası onun layiqli davamçısı, respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə iqtisadi-siyasi, hərbi sahələrdə böyük uğurlar qazanıldığı kimi, idman sahəsində də yüksək inkişafa, tərəqqiyə nail olunmuşdur. Qürurla demək olar ki, ordu idmançıları da döyüş hazırlığında, təlim mərkəzlərində göstərdikləri rəşadətləri, mətinliyi, çevikliyi yüksək bacarıqla təkcə Azərbaycan Ordusunda keçirilən yarışlarda deyil, beynəlxalq yarışlarda da nümayiş etdirirlər".



"İdman oyunları vasitəsilə əsgərlərin vətənpərvərlik ruhunda formalaşdırılması zabit-əsgər münasibətlərinə mühüm təsir göstərir. Zabitin vətənpərvərlik tərbiyəsinə daha yaxşı bələd olması, idman oyunlarının keçirilməsi zamanı əsgərlərə səmimi münasibət göstərməsi vacibdir. Bu cür münasibət əsgərlərdə böyüklərə hörmət, tələbkarlıq prinsipinə əməl etmək, obyektiv olmaq, ləyaqət və humanizm kimi əxlaqi keyfiyyətləri uca tutmaq vərdişləri yaradır.

İdman oyunlarında mənəvi keyfiyyətlər çoxdur. Onlar zabitin xarakterində özünə möhkəm yer tapmalıdır ki, o, bu keyfiyyətləri əsgərlərinə aşılaya bilsin. İdman oyunlarında nizam-intizama aid elə tələblər vardır ki, bunları oyunda iştirak edən hər kəs başa düşməli və ona sözsüz əməl etməlidir. Belə oyunların mahiyyəti yeniyetmə və gənclərdə vətənpərvərlik hisslərinə yiyələnmək, fiziki cəhətdən sağlam olmaqdır. Bu qaydalar orduda xüsusilə özünü göstərir. Bu amil zabitdən yüksək nəzəri hazırlıq, hər bir oyunun məzmununa dərindən bələd olmağı tələb edir. Zabit bilməlidir ki, təşkil etdiyi idman oyunu əsgərlərə hansı əxlaqi keyfiyyətləri aşılayacaq və oyunun hansı hissəsi fiziki tərbiyə ilə bilavasitə bağlıdır. Buna görə də zabit oyunun keçirilməsinə hazırlaşarkən, ilk növbədə, onun məzmununu diqqət mərkəzində saxlamalı, oyunun şəxsi heyətin tərbiyəsinə necə təsir göstərəcəyini qabaqcadan müəyyənləşdirməlidir", - deyə polkovnik Sadiq Paşayev əlavə etdi.

Polkovnik-leytenant Rasim Manafov isə qeyd etdi ki, orduda xidmət edən hərbi qulluqçuların sağlam olması vacib şərtlərdən biridir. "Ona görə də rəhbərlik tərəfindən Azərbaycan Ordusunda bu istiqamətdə kifayət qədər təqdirəlayiq işlər görülüb. Azərbaycan Ordusunun hərbi hissələrində yaradılan müasir idman qurğuları şəxsi heyətimizin sağlamlığına xidmət edir. Ordunun şəxsi heyəti fiziki cəhətdən sağlam olmaqla Vətənimizin etibarlı qoruyucularına çevrilir.

İdmanın elə bir yaş dövrü var ki, o bilavasitə ordu ilə bağlıdır. İdmanın əhəmiyyəti orduda çox böyükdür. Necə deyərlər, bu, fiziki sağlamlıqdır, uğur əldə etməyə, yeni-yeni qələbələr qazanmağa stimuldur. Son illər rəhbərliyin şəxsi heyətə göstərdiyi diqqətin əhəmiyyətli dərəcədə artması əsgərlərdə vətənpərvərlik hisslərinin daha da güclənməsinə təsir göstərir. Bu gün Azərbaycan Ordusunun düşmənlə təmas xəttində yerləşən bölmələri çoxdur. Əsgərlərimizin əlbəyaxa döyüşə atılması



nəzərə alınaraq şəxsi heyətimizin sağlamlığı və fiziki hazırlığına nəzarət edilir. Bu məqamda əsgərin fiziki hazırlığı əhəmiyyətli rol oynayır.

Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planının əsas tərkib hissələrindən biri də fiziki hazırlıqdır. Şəxsi heyətin fiziki vərdişlərinin artırılması üçün vacib idman növləri üzrə Azərbaycan Ordusunda birinciliklərin keçirilməsi artıq neçə illərdir ənənəyə çevrilib. Bu qəbildən olan futbol yarışı da şəxsi heyətin fiziki vərdişlərinin möhkəmlənməsinə xidmət edir. İnanıram ki, altı gün davam edəcək futbol birinciliyi hərbi qulluqçuların əsl idman mübarizəsi şəraitində keçəcək". Birincilik iştirakçılarına qələbə və uğurlar arzulayan polkovnik-leytenant Rasim Manafov gələcək illərdə yarışların ölkəmizin bütün ərazilərində keçiriləcəyinə əminliyini ifadə etdi.

Yarışda iştirak edən 13 komanda Azərbaycan Ordusu bütün qoşun növlərini, birlik və hərbi hissələrini təmsil edirdi. Dörd qrupa bölünən komandalardan səkkizi yarışlarda iştirak etmək hüququ qazandı. Bərdə, Beyləqan, Şəmkir, Bakı komandaları birincilikdə daha fəal iştirak etdilər. Finala vəsiqə qazanan Bakı və Şəmkir komandalarının yarışı gərgin mübarizə və dostluq şəraitində keçdi. Bakı komandası qazandığı öncüllüyü axıradək qətiyyətlə qoruyub saxladı. Birinci yerə Bakı, ikinci yerə Şəmkir komandası sahibləndi. Bərdə komandası isə üçüncü yerdə qərarlaşdı. Yarışı AFFA-nın hakimlər komitəsinin üzvləri idarə edirdilər.

Birinciliyin yekununa həsr olunmuş mərasimdə iştirak edən general-mayor Xəqani Cəbrayılov ordu idmançılarını təbrik etdi. Zabit bildirdi ki, Azərbaycan Ordusu bütün sahələrdə olduğu kimi, idman sahəsində də inkişaf etməkdədir. Ordu idmanının inkişafına Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən göstərilən diqqətin bəhrəsidir ki, idmançılarımız keçirilən beynəlxalq yarışlarda da Azərbaycan Ordusunu ləyaqətlə təmsil edirlər. Bütün bunlar göstərir ki, hərbi qulluqçular döyüş, təlim meydanlarında göstərdikləri yüksək məharəti, fiziki hazırlığı, döyüş qabiliyyətini idman yarışlarında da nümayiş etdirməyə qadirdirlər. İnanırıq ki, hərbçilərimiz idman qələbələrini Vətənimizin ərazi bütövlüyü uğrunda savaşda düşmən üzərində qələbələrlə əvəzləyəcək və ərazi bütövlüyümüzü təmin edəcəyik.

Sonda birinciliyin qaliblərinə Müdafiə Nazirliyinin rəhbərliyi adından fəxri fərman və medallar verildi. Yarışın keçici kuboku isə Bakı komandasına təqdim edildi.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

---

Bu günlərdə Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında futbol birinciliyi keçirildi. "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan futbol birinciliyində 17 komanda mübarizə apardı. Əlahiddə Ümumqoşun Ordu Komandanlığının təşkil etdiyi və Olimpiya sistemi ilə keçirilən birincilikdə Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının hakimləri oyunları idarə etdilər.

Geniş tamaşaçı kütləsinin alqışları altında izlənilən oyunlar gərgin mübarizə şəraitində keçdi. Hərbi qulluqçuların qələbə uğrunda mübarizə apardığı hər bir oyun qol yağışı ilə yadda qalan oldu. 17 komanda arasından finala yüksələn ən güclü 2 komandanın gərgin mübarizə apardığı görüşdə 5-0 hesabı ilə qələbə qazanan tərəf Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının futbol komandası oldu. Hərbi qulluqçuların futbol birinciliyində ikinci yerdə motoatıcılar, üçüncü yerdə isə xüsusi təyinatlılar qərarlaşdı. İlk üçlükdə qərarlaşan komandalar Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən diplom və kuboklarla mükafatlandırıldılar.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 776
Nüsxə 3525